***Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29 oktyabr 2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.***

**Vəkil qurumlarının təşkili və fəaliyyəti haqqında**

# QAYDALARI

Azərbaycan Respublikası Konstitusiyasına əsasən hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ təsbit edilmişdir. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda, eləcə də digər qanunvericilik aktlarında Konstitusiya ilə təsbit edilmiş həmin hüquqların peşəkar vəkillər tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyətini, hüquqi dövlətdə bu təsisatın rolunu nəzərə alaraq, ölkəmizdə məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində görülən işlər çərçivəsində vəkilliyin inkişafına dəstək vermək məqsədilə "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 22 fevral 2018-ci il tarixli Sərəncam imzalanmışdır.

Həmin Sərəncamın icrası həmçinin, keyfiyyətli hüquqi yardımın göstərilməsinə xidmət edəcək müasir standartlara, İnformasiya Kommunikasiya Texnologiyalarının tələblərinə cavab verən "Vəkil qurumlarının yaradılması və fəaliyyəti Qaydaları"nda (bundan sonra - Qaydalar) göstərilən göstəricilərə uyğun yeni Vəkil qurumlarının (bundan sonra - Qurum) yaradılmasını, eləcə də mövcud hüquq məsləhətxanalarının bu Qaydalarda nəzərdə tutulan tələblərə uyğunlaşdırılmasını zəruri etmişdir.

Bu Qaydaların məqsədi vəkillərin iş şəraitinin yaxşılaşdırılmasından, vətəndaşlara peşəkar və keyfiyyətli hüquqi yardımın göstərilməsi üçün texniki və informasiya kommunikasiya texnologiyalarının tətbiqi və konfidensial görüş otaqlarının təşkil edilməsindən ibarətdir.

## I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydaların əsasını Azərbaycan Respublikası Konstitusiyası, "Vəkillər və Vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 19 mart 2012-ci il tarixli 2-N saylı qərarı ilə təsdiq edilmiş "Qeyri-kommersiya qurumlarının dövlət qeydiyyatının aparılması Qaydaları", eləcə də Azərbaycan Respublikasının digər normativ hüquqi aktları təşkil edir.

1.2. Qurum üzvülüyə əsaslanan, təsisçilər tərəfindən təsdiq edilən Nizamnamə əsasında və həmin təsisçilərin öz aralarında təsis müqaviləsi bağlaması yolu ilə təsis edilən və fəaliyyət göstərən qeyri-kommersiya təşkilatıdır.

1.3. Qurumun təsisçiləri yalnız Azərbaycan Respublikası Vəkillər Kollegiyasına üzvləri ola bilərlər.

## II. QURUMLARIN YARADILMASI

2.1. Qurum bir qayda olaraq üç və daha çox vəkil tərəfindən təsis edə bilər.

2.2. Təsis müqaviləsində təsisçilər Qurumun fəaliyyətində iştirak qaydasını, təsisçilərin öz əmlaklarını qurumya vermək şərtlərini, qanuni təmsilçinin müəyyən edilməsi, qurumya yeni üzvlərin qəbul edilməsi qaydalarını və şərtlərini, Qurumun təsisçilərini, onların hüquq və vəzifələrini, təsisçilərin Qurumun tərkibindən çıxmalarının qayda və şərtlərini müəyyən edirlər.

2.3. Nizamnamədə aşağıdakılar əks olunur:

- Qurumun adı;
- Qurumun yerləşdiyi yer;

- Qurumun fəaliyyət predmeti və məqsədi;
- Qurumun əmlakının yaranma mənbəyi və onun istifadə istiqamətləri (o cümlədən bölünməz fondların mövcud olub-olmaması və onun istifadə istiqamətləri);
- Qurumun idarəetmə qaydası;
- Qurumun yenidən təşkili və ləğvetmə qaydası;
- Qurumun nəzdində vəkil kabinetinin yaradılma və ləğv qaydası;
- Nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi qaydası;
- "Vəkillər və Vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına zidd olmayan müddəalar.

2.4. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq hüquqi şəxs statusu olan Qurumun dövlət qeydiyyatına alınması üçün qeydiyyat orqanına ərizə ilə müraciət edilməlidir.

2.5. Ərizə təsisçilər və onların müvafiq qaydada vəkil etdiyi şəxs tərəfindən imzalanır və notariat qaydada təsdiqlənir.

2.6. Ərizədə aşağıdakılar göstərilir:

- Təsisçilərin adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi;
- Ərizə səlahiyyətli şəxs tərəfindən imzalandıqda onun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi və vəkalətnamə haqqında məlumatlar (vəkalətnamənin həm də bu məqsədlə verilməsi xüsusi olaraq göstərilməlidir);
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 aprel 2005-ci il tarixli 70 nömrəli qərarı ilə təsdiq edilən ərizə formasında müəyyən edilən digər məlumatlar.

2.7. Ərizəyə aşağıdakılar əlavə olunur:

- Qurumun təsisçiləri və onların səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş nizamnaməsi (2 nüsxədə);
- Qurumun nizamnaməsinin təsdiq edilməsi və idarəetmə orqanlarının formalaşdırılması barədə qərarlar;
- Təsis sənədləri Azərbaycan Respublikası Mülki Məcəlləsində nəzərdə tutulmuş, habelə təsisçilər tərəfindən zəruri hesab edilən digər məsələləri əks etdirməli və bütün təsisçilər (və ya onların səlahiyyətli nümayəndələri) tərəfindən imzalanmalıdır;
-Dövlət rüsumunun ödənilməsi haqqında sənəd (dövlət rüsumu dövlət büdcəsinə nağd şəkildə ödənildiyi halda bank qəbzinin əsli, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank sənədi);
- Təsisçilərin şəxsiyyətini təsdiq edən sənədlərin surəti;
- Hüquqi ünvanını təsdiq edən sənəd (Qurumun yerləşdiyi yerə dair mülkiyyətçinin müvafiq iradə ifadəsini əks etdirən sənəd, Qurumun yerləşdiyi yerə dair təsisçilərin qərarı);
- Qanuni təmsilçi təyin edildiyi halda onun şəxsiyyətini təsdiq edən sənədin surəti;
-"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Qurumun təsis edilməsinə dair Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin rəyi.

2.8. Qurumun nizamnaməsinin titul vərəqində qeydiyyat nömrəsi, qeydiyyat tarixi və dövlət qeydiyyatı orqanlarının adının qeyd olunması üçün müvafiq hissə olmalıdır.

2.9. Ərizə surəti ilə birlikdə təqdim edilməlidir. Ərizənin əsli dövlət qeydiyyat orqanında saxlanılır, surəti isə dövlət qeydiyyat orqanı tərəfindən ərizənin əslinin qəbul edilməsi vaxtını göstərən qeydlə müraciət etmiş şəxsin tələbi ilə həmin şəxsə qaytarılır.

2.10. Qurumun təsis olunması, yenidən təşkili və ləğvi barədə rəy verilməsi üçün onun təsisçiləri Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Aparatına yazılı məktubla müraciət edirlər. Təsis olunacaq Qurumun təsisçiləri müraciətdə qurumda fəaliyyət göstərən vəkillər barədə, Qurumun yerləşdiyi yer barədə məlumat verməlidirlər. Müraciət Aparata daxil olduqdan sonra Vəkillər Kollegiyası Rəyasət Heyəti tərəfindən həmin müraciət araşdırılır. Araşdırma zamanı qurum yaracanaq rayonda (şəhər) tələbatı, əraziyə, maddi-texniki bazaya (o cümlədən sənədlərin saxlanılması üçün dəmir seyf və ya dəmir şkaflar olan) və peşəkar hüquqi yardım göstərilməsi üçün tələb olunan bütün göstəricilərin mövcudluğuna diqqət yetirilməlidir. Müsbət mülahizə (rəy) verildikdən sonra təsisçilər bu Qaydaların tələblərinə riayət etməklə təsis işlərini başlayırlar. Mənfi mülahizə (rəy) verildikdə mövcud pozuntular aradan qaldırıldıqdan sonra

təsisçilər tərəfindən yenidən Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Aparatına müraciət edilə bilər.
2.11. Qurum dövlət qeydiyyatına alındığı gündən təsis olunmuş hesab olunur. Qurumun dövlət qeydiyyatı və onun fəaliyyətinə xitam verilməsinə dair qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.
2.12. Qurumun girişində bu Qaydaların 1 nömrəli əlavəsindəki nümunələrəuyğun olaraq lövhələr hazırlanıb yerləşdirilir.

## III. QURUMUN FƏALİYYƏTİ

3.1.Təsis müqaviləsinin və Qurumun nizamnaməsinin tələbləri, Qurumun özü və onun üzvləri üçün məcburidir.
3.2.Qurum hüquqi şəxs hesab olunur, onun müstəqil balansı, möhürü, ştampı və Qurumun adını, ünvanını əks etdirən blankı olur. Qurum Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq banklarda bank hesabı açır. Möhür və ştampın nümunələri bu Qaydaların 2 saylı Əlavəsi ilə müəyyən olunmuşdur.
3.3.Qurumun üzvləri tərəfindən qurumya verilən əmlak xüsusi mülkiyyət hüququ ilə qurumya məxsusdur.
3.4.Qurumun üzvləri onun öhdəliklərinə görə, qurum isə öz üzvlərinin öhdəliklərinə görə məsuliyyət daşımır.
3.5.Qurum Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq onun üzvləri olan vəkillərin vəkillik fəaliyyətindən əldə etdiyi gəlirlər üzrə vergi agentidir, həmçinin üçüncü şəxslərlə etibar edənlərlə hesablaşmalarda Qurumun təsis sənədində nəzərdə tutulmuş digər məsələlər üzrə onların nümayəndəsidir.
3.6.Qurumun tərkibinin dəyişdirilməsi, yəni qurumya yeni üzvlərin qəbulu və qurum üzvlərinin üzvlükdən xaric edilməsi Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin rəyi əsasında təsisçilərin ümumi yığıncağının qərarı ilə həyata keçirilir.
3.7.Hüquqi yardım göstərilməsinə dair müqavilə hüquqi yardım üçün müraciət etmiş (etibar edən) şəxs vəkil və qurum arasında bağlanılmaqla, Qurumun sənədləşməsində qeydə alınır.
3.8. Qurumun fəaliyyəti ilə bağlı bu Qaydalarda nəzərdə tutulmayan məsələlər -“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, “Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Nizamnaməsi”, Vəkillər Kollegiyası Rəyasət Heyətinin müvafiq qərarları və Qurumun nizamnaməsi ilə tənzimlənir.

## IV. DİGƏR MƏSƏLƏLƏR

4.1.Bu Qaydaların müddəalarına heç bir halda etibar edənin tapşırıqlarının icrasında vəkilin müstəqilliyinin, həmçinin onun etibar edən qarşısında peşə məsuliyyətinin məhdudlaşdırılması kimi baxıla bilməz.
4.2.Qurum kommersiya və ya digər kommersiya təşkilatına çevrilə bilməz.
4.3.Qurum Azərbaycan Respublikası ərazisi daxilində, Qurumun yerləşdiyi inzibati ərazidən kənarda olmamaq şərtilə vəkil kabineti, həmçinin bu xarici dövlətin qanunvericiliyində nəzərdə tutulduğu halda xarici dövlətin ərazisində filiallarını yarada bilər.
4.4.Vəkil kabineti və ya filialların yaradılması və ləğv edilməsi ilə bağlı Qurumun müdiri Vəkillər Kollegiyasının Rəyasət Heyətinə yazılı müraciət ünvanlayır. Müraciətdə vəkil kabinetinin və ya filialının yaradılması məqsədi, əsasları vəkillik fəaliyyətini həyata keçirəcək vəkillər barədə məlumatlar, Qurumun yerləşdiyi yer barədə, Vəkillər Kollegiyası ilə qurum arasında telefon, teleqraf, poçt və ya digər əlaqələrin həyata keçirilmə qaydaları barədə məlumatlar öz əksini tapmalıdır. Müraciətə Qurumun vəkil kabineti və ya filialının yaradılmasına dair qurum təsisçilərinin qərarı, vəkil kabinetinin və ya filialının Əsasnaməsi əlavə olunur. Vəkillər Kollegiyasının Rəyasət Heyəti məsələni araşdırır, müraciətdə qaldırılan məsələ tələblərə cavab verdiyi halda ona müraciətə müsbət rəy verir.

4.5.Qurumun filialı Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin filialın yaradılmasına dair müvafiq qərarı ilə yaranmış hesab olunur.
4.6.Qaydalar yalnız Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin qərarı ilə qəbul oluna, dəyişdirilə və ləğv oluna bilər.

***Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29 oktyabr 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş* “Vəkil qurumlarının təşkili və fəaliyyəti haqqında” qaydalara**

**1 SAYLI ƏLAVƏ**

| | |
|---|---|
| **AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASI**<br><br>**BAKI ŞƏHƏRİ 1 SAYLI VƏKİL BÜROSU**<br>______________________________<br><br>**Telefon: +994 12 598 23 58**<br>**Faks: +994 12 598 23 57**<br>**E-mail: office.1@barassociation.az** | **BAR ASSOCIATION OF THE REPUBLIC OF AZERBAIJAN**<br><br>**LAW OFFICE NO 1 OF BAKU CITY**<br>______________________________<br><br>**Phone: +994 12 598 23 58**<br>**Fax: +994 12 598 23 57**<br>**E-mail: office.1@barassociation.az** |

| |
|---|
| **BAKI ŞƏHƏRİ 1 SAYLI VƏKİL BÜROSU** |

***Qeyd:*** *mətnlər ağ parlaq plastmas üzərində parlaq qara hərflərlə*

*Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29 oktyabr 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş* **“Vəkil qurumlarının təşkili və fəaliyyəti haqqında” qaydalara**

## 2 SAYLI ƏLAVƏ

**Möhür nümunəsi**




**Ştamp nümunəsi**

